# Şəxsiyyətin psixoloji inkişafı və formalaşması məsələləri

**Gülnarə Əlixanova**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*ADPU-nun baş müəllimi*
**E-mail:** gulnare.alixanova@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., H.İ. Əliyeva

**Açar sözlər:** şəxsiyyət amili, özünə münasibət, “Mən” konsepsiya, ünsiyyət dairəsi, insanın inkişafı, fəaliyyət prosesi

**Ключевые слова:** личностный фактор, отношение к себе, понятие «я», круг общения, развитие человека, процесс действия

**Key words:** personality factor, attitude towards self, concept of "I", communication circle, human development, process of activity

Şəxsiyyətin psixoloji inkişafı problemi, onun müxtəlif tərəflərdən öyrənilməsi, hələ antik filosofların marağına səbəb olmuşdur. Sokrat, Platon və Aristotel şəxsiyyətin psixoloji inkişafı və formalaşması haqqında dəyərli fikirlər söyləmişlər. Şəxsiyyət probleminin tədqiqi ilə filosoflar, psixoloqlar, sosioloqlar, bioloqlar, fizioloqlar, erqonomiklər və b. məşğul olmuşlar. Problem bir çox elm sahələrinin tədqiqat obyekti olmuşdur. Şəxsiyyət dedikdə, şüurlu fəaliyyət göstərən, sosial-psixoloji münasibətlərdə iştirak edən, düşünülmüş əməllər sahibi olan, ətraf aləmə psixoloji təsir edən və ya bu barədə düşünən pozitiv mövqeli, humanist insan nəzərdə tutulur (1, s. 140).

Şəxsiyyətin psixoloji inkişafı, tərbiyəsi, yaş xüsusiyyətləri və dövrləri Azərbaycan xalq pedaqoji - psixoloji fikrində də özünə möhkəm yer tutmuş, bu yönümdə xalqın düşüncə və fikirləri, mülahizələri bütün dövrlərdə yüksək psixoloji dəyər və qiymətə malik olmuşdur.

Psixologiyanın elmi mənbələrinə görə, şəxsiyyətin doğulması prosesi müəyyən dövrlərə ayrılır. Şəxsiyyət birinci dəfə məktəbəqədər yaş dövründə doğulur. Psixoloji baxımdan birinci dövrdə şəxsiyyətin təzahürü əsasən üç yaşında uşağın özünə “Mən” deməsi ilə başlayır. Şəxsiyyətin doğulmasının ilk əlamətləri uşağın tələbat-motivasiya sahəsində əmələ gələn dəyişikliklərdə nəzərə çarpır.

Şəxsiyyət ikinci dəfə yeniyetməlik yaşı dövründə doğulur. L.İ.Bojoviçin fikrincə, şəxsiyyəti səciyyələndirmək imkanı verən ikinci mühüm meyar davranış motivlərinin məhz dərk olunması, onların sosial normalarla şüurlu surətdə şərtlənməsini nəzərdə tutur. İkinci dövrdə şəxsiyyətin xüsusi instansiyası kimi mənlik şüuru formalaşır və “Mən - konsepsiya” əmələ gəlir. Mənlik şüuru çoxcəhətlidir, onun strukturunda iki cəhət - psixoloji avtoportret olan “Mən”obraz və özünə münasibət xüsusi yer tutur. Mənlik şüurunun üç başlıca funksiyasını - özünüdərketmə, özünütəkmilləşdirmə və həyatın mənasının axtarılması funksiyalarını fərqləndirirlər. Yeniyetmənin bir şəxsiyyət kimi formalaşması prosesində mənlik şüuru əxlaqi şüurla qarşılıqlı əlaqədə inkişaf edir (2, s. 98).

Şəxsiyyət eyni zamanda ətraf mühitin obyektiv qanunları əsasında formalaşır. Bunun da nəticəsində onun sosial davranışı müəyyən məzmun kəsb edir. İnsanın onu əhatə edən fiziki və sosial mühiti öyrənməsi uzun çəkən bir prosesdir. Bu öyrənmə prosesi onun həyatının sonunadək davam edir. Uşaq daim özünü başqaları ilə müqayisə edir. Nəticədə o, ətraf

mühitin sosial təcrübəsini qəbul edir, özü də sosiallaşır və formalaşır.

Şəxsiyyətin başqa şəxsiyyətlərlə əlaqəsi olmasa, o, özünü də dərk edə bilməz. Bu cür ilkin əlaqələr sosial qrup daxilində yaranır. Sosial mühit insanın formalaşmasında güzgü rolunu oynayır. Şəxsiyyətin sosiallaşmasında şəxsi nümunələr, normal həyat tərzi, normal məişət, xoş ailə münasibətləri, yoldaşlar, bilikli müəllimlər, onu əhatə edən insanların ona qayğısı və s. müsbət rol oynayır.

Şəxsiyyətin strukturunda aşağıdakı üç vacib pedaqoji və psixoloji xarakteristika ayırd edilir: 1. Şəxsiyyətin sabitliyi zamanı davamlı motivlər sistemi şəxsiyyətin istiqamətini müəyyən edir. 2. Şəxsiyyətin tamlığı zamanı onun bütün cəhətləri sıx əlaqədə olur və digər cəhətləri üçün vacib əhəmiyyət kəsb edir. 3. Şəxsiyyətin fəallığı nəyi isə dərk etmək, dəyişmək, ətraf aləmi yeniləşdirmək, öz təbiətini, öz psixi xarakterini dəyişdirməklə özünütərbiyədə aşkarlanır.

Şəxsiyyət sosial aspektdə öz mövqeyi ilə xarakterizə olunur. Şəxsiyyətin mövqeyi-maddi şəraitdəki münasibətlər sistemi, cəmiyyətə, insanlara, özünə, ictimai və əmək vəzifələrinə münasibətdə özünü göstərir. Şəxsiyyəti tərbiyə edərkən onun bir cəhətini tərbiyə edib, digərini nəzarətdən kənarda qoymaq olmaz. Şəxsiyyət bütöv, kompleks şəkildə, ahəngdar şəkildə formalaşır, inkişaf edir və tərbiyə olunur (3, s. 76).

Müasir psixologiyada şəxsiyyətə tam, psixi sistem kimi baxılır. Burada bioloji və sosioloji xüsusiyyətlər ayrılmazdır. Şəxsiyyət ictimai həyatın məhsulu olmaqla, həm də canlı orqanizmdir. Şəxsiyyətin formalaşması və davranışında sosioloji xüsusiyyətlər ayrılmazdır. Şəxsiyyətin zənginliyi onun başqaları ilə çoxşaxəli əlaqələrindən, başqaları ilə ünsiyyət və münasibətindən, həyat və təbiətlə münasibətlərinin fəallığından asılıdır. Şəxsiyyətin ünsiyyət dairəsi geniş olduqca, onun ictimai həyatın müxtəlif cəhətləri ilə əlaqələri rəngarəng olur, o ictimai əlaqələr aləminə daha çox nüfuz edir və bundan da onun mənəvi aləmi daha çox zənginləşir. Şəxsiyyətin inkişafı insanın dünyaya gəldiyi gündən başlayaraq keyfiyyətcə bir-birindən fərqlənən anatomik, fizioloji, psixoloji və sosial dəyişikliklərlə səciyyələnən prosesdir.

Şəxsiyyət və onun inkişafı haqqında "rollar nəzəriyyəsi" adlı istiqamətin əsasını Amerika sosioloqu və psixoloqu, rollar nəzəriyyəsinin banisi C.Mid qoymuşdur. Onun fikrincə, insan daima cəmiyyətlə qarşılıqlı əlaqədə olduğuna görə şəxsiyyətin necə davranacağını qabaqcadan müəyyənləşdirmək mümkün deyildir. Bu nəzəriyyəyə görə, şəxsiyyətin əsas mexanizmi və strukturunu onun rol şəraiti təşkil edir.

İnsanın inkişafı və onun şəxsiyyət kimi formalaşması eyni zamanda üç başlıca amilin – irsiyyət, mühit və tərbiyənin qarşılıqlı təsiri ilə həyata keçirilir. İrsiyyət dedikdə, valideynlərdən uşaqlara müəyyən keyfiyyət və xüsusiyyətlərin irsən keçməsi başa düşülür. Mühit dedikdə, başlıca olaraq, ictimai, qismən isə təbii-coğrafi mühit nəzərdə tutulur. Sosial mühit dedikdə, insanın həyat fəaliyyətini, inkişafını əhatə edən xarici şərait nəzərdə tutulur. Şəxsiyyətin inkişafına, xüsusilə kiçik və məktəb yaşlı uşaqlara təbii mühit – ailə mühiti güclü təsir göstərir. Şəxsiyyətin əxlaqi və sosial keyfiyyətlərinin də əsası ailədə qoyulur.

Şəxsiyyətin inkişafında tərbiyə amili mühüm əhəmiyyət kəsb etməkdədir. İlk dəfə "Ağ lövhə" nəzəriyyəsini irəli sürən ingilis filosofu Con Lokka görə insan doğularkən "Ağ lövhə" kimi doğulur. Bu lövhəyə nə yazılarsa, insan da elə inkişaf edəcəkdir. Şəxsiyyətin formalaşmasında mühit və tərbiyə amilləri həmişə dinamik, hərəkətdə və inkişafda olan amillərdir.

Şəxsiyyətin inkişafında Stenli Hollun "Qoşa amil" nəzəriyyəsində bu amil özünü müxtəlif formalarda göstərir. Bu nəzəriyyəyə görə, uşağın taleyi bir tərəfdən özü ilə irsən gətirdiyi

bioloji amillə, o biri tərəfdən isə onun yaşadığı ictimai mühitlə (ailə, məhəllə və s.) və ya tərbiyə ilə əlaqəlidir (4, s. 60).

Şəxsiyyətin inkişafında və formalaşmasında müxtəlif fəaliyyət növlərinin rolu böyükdür. Məhz fəaliyyət prosesində şəxsiyyətin hərtərəfli inkişafı baş verir, onun ətraf aləmə münasibəti formalaşır. Bu dəyişmə tədricən davamlı, sistemli, ardıcıl şəkildə və kompleks olaraq həyata keçirilir. Bu və ya digər fəaliyyət növünün müvafiq yaş dövrü üçün əsas fəaliyyət növü olub-olmaması və onun təşkil edilməsi də burada əsas rol oynayır.

Müasir pedaqoji - psixoloji ədəbiyyatda istiqamətinə, məzmununa görə fəaliyyətin aşağıdakı növləri ayırd edilmişdir: 1. Vasitəsiz emosional ünsiyyət və münasibət. 2 Əşyavi-manipulyativ fəaliyyət. 3. Oyun fəaliyyəti. 4. Təlim fəaliyyəti. 5. Əmək fəaliyyəti. 6. Ünsiyyət fəaliyyəti.

Vasitəsiz emosional ünsiyyət çağanın anası ilə özünəməxsus dialoqudur. Bu hiss əsas etibarilə bioloji cəhətdən qarşılıqlıdır və inkişafa qüvvətli təsir göstərən amildir. Əşyavi-manipulyativ fəaliyyət prosesində uşaq əşyaları sökə-sökə, sürüyə-sürüyə, bir-birinə calaya-calaya onların xassələrini dərk edir və inkişafa üz qoyur. Oyun uşaqlarda psixi proseslərin, fərdi psixi xüsusiyyətlərin, xüsusilə iradə və xarakterin, kollektivçilik hissinin inikşafına və formalaşmasına güclü təsir göstərir.

L.S.Vıqotskinin dediyi kimi, "Təlim öz ardınca inkişafı aparır". Düzgün təşkil edilmiş təlim prosesi şəxsiyyəti hərtərəfli inkişaf etdirir. P.A.Qalperinin, V.V.Davıdovun, L.V.Zankovun, D.B.Elkoninin, Azərbaycan pedaqoq və psixoloqlarından M.M.Mehdizadənin, M.Ə. Muradxanovun, F.İbrahimbəyovun, Ə.Əlizadənin, Ə.Bayramovun, M.Həmzəyevin və b. bu sahədə xüsusi xidmətləri olmuşdur.

Şəxsiyyətin inkişafında əmək bir fəaliyyət növü kimi böyük qüvvəyə malikdir. A.S.Makarenko məhz öz təcrübəsinə əsasən deyirdi ki, əmək insanda yüksək əxlaqi keyfiyyətlər formalaşdırır (5, s. 101). Hərtərəfli inkişaf etmiş şəxsiyyət o deyil ki, hər işi görür və hər işi bacarır, əməyini elmi əsaslarla qura bilir. Hərtərəfli inkişaf etmiş şəxsiyyət hər cür əməyi yaradıcı əməyə, azad əməyə malik olan şəxsiyyət başa düşülür. Şəxsiyyətin inkişafında və formalaşmasında bir fəaliyyət növü kimi ünsiyyətin işğüzar əsası, həm fəallığı təmin edir, həm yaradıcı imkanları inkişaf etdirir, həm də ümumi məqsədə nail olmaq yolunu əks etdirir. Beləliklə, şəxsiyyət formalaşdıqca, inkişaf etdikcə fəaliyyətin xarakteri də köklü surətdə dəyişilir və inkişaf edir. Fəaliyyət prosesində şəxsiyyətin tələbat motivasiya, emosiya və idrak sahələri bir-birinə nüfuz edir, onlar tədricən qarşılıqlı əlaqədə - yeni bir inkişaf mərhələsinə çıxır və şəxsiyyətin psixoloji tərbiyəsi prosesi davam edir.

**Məqalənin aktuallığı.** Şəxsiyyətin formalaşmasının psixoloji xüsusiyyət-lərinin əsas təzahürlərini müəyyənləşdirmək, müasir psixologiyanın elmi–nəzəri tələbləri səviyyəsində həmin problemlərin təhlilini verməkdən ibarətdir.

**Məqalənin elmi yeniliyi.** Şəxsiyyətin formalaşmasının psixoloji xüsusiyyətləri probleminin təhlili, özünüdərk, özünüqiymətləndirmə, işgüzar fəaliyyət və düzgün ünsiyyətə bələd olmağa köməklik göstərmək yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

## Ədəbiyyat

1. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005, 288 s.
2. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s.
3.Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000, 180 s.
4. Qasımzadə F. Şəxsiyyət: formalaşması və inkişafı // Azərbaycan məktəbi, 1989, № 10, s. 56-63
5. В.А. Сластенина. Социальная психология. М.: Академия, 2000, 264 с.

**Г.Алиханова**

## Проблемы психологического развития и формирования личности

## Резюме

Актуальность выбранной темы продиктована тем что, богатство человека зависит от его многомерных отношений с другими, его общения и взаимодействия с другими, его или ее жизни и отношение к природе. Развитие личности и его личности как личности осуществляется через взаимосвязь трех факторов - наследственности, окружающей среды и воспитания.

Как форма деятельности в развитии и формировании личности, деловая основа общения обеспечивает как активность, так и способность, и достигает общих целей. Таким образом, по формировании и развития личности, также радикально меняется и развивается характер деятельности.

**G. Alikhanova**

## Issues of psychological development and formation of personality

## Summary

The richness of a person depends on his multidimensional relationship with others, his communication and interactions with others, his or her life and nature. The development of the individual and his or her personality as a person are brought to life through the interrelationship of three factors – heredity, environment and upbringing.

As a form of activity in the development and formation of the personality, the business foundation of communication provides both activity and capacity, and the goal of achieving a common goal. Thus, as personality grows, as the individual develops, his or her patients also change and evolve.

**Redaksiyaya daxil olub:** 09.08.2019